Mədəniyyət.- 2021.- 5 fevral. S.8.

# Misir kitabxanasına Azərbaycan haqqında kitablar hədiyyə edilib

Azərbaycanın Misirdəki Səfirliyi bu ölkənin yeni inzibati paytaxtında fəaliyyətə başlayan kitabxanaya ölkəmiz haqqında kitablar təqdim edib. Yeni inzibati paytaxt Qahirə şəhərinin yaxınlığında inşa edilir.

Səfirliyin əməkdaşı Emil Rəhimov ölkəmizin tarixi, mədəniyyəti və müstəqillik illərində qazandığı nailiyyətlər barədə ərəb, ingilis və rus dillərində kitabları yeni inzibati paytaxt kitabxanasının direktoru, professor Zeynəldin Məhəmməd Əbdel Hadiyə təqdim edib. Azərbaycan möhtəşəm binası və maddi-texniki bazası olan bu kitabxanaya kitablar təqdim edən ilk üç ölkədən biri olub.

Səfirliyin əməkdaşı məlumat verib ki, bu il Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın dahi şair və mütəfəkkirinin şərəfinə "Nizami Gəncəvi İli" elan edilib. Bu əlamətdar ildə Misirdə də Nizami poeziyasına həsr edilən silsilə tədbirlər keçiriləcək.

Kitabxananın direktoru Zeynəldin Məhəmməd Əbdel Hadi diqqətə çatdırıb ki, Nizami Gəncəvi kimi dahilər vətəni olan Azərbaycan haqqında kitabların fonda daxil edilməsi istər misirli oxucular, istərsə də yeni inzibati paytaxtda fəaliyyət göstərəcək əcnəbi vətəndaşlar, səfirliklərin əməkdaşları üçün maraqlı olacaq. O əlavə edib ki, öz işini yeni texnoloji tələblərə uyğun quracaq bu kitabxananın elektron fonduna da Azərbaycan haqqında kitabların daxil edilməsi ölkəmizin tanıdılması baxımından əhəmiyyət kəsb edir.

Söhbət zamanı Misirin yeni inzibati paytaxtındakı mədəniyyət şəhərciyində Azərbaycan mədəniyyəti günləri və sərgilərin təşkili, yeni kitabxana ilə Azərbaycan Milli Kitabxanası arasında əməkdaşlıq məsələləri də müzakirə edilib.